# Təhsil ili uğurla başa çatdı

Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin ən başlıca strateji istiqamətlərindən biridir.

Dövlət başçısının müntəzəm dəstəyi və qayğısının nəticəsi olaraq, yeni məktəblərin inşası, azkomplektli məktəblər üçün modul tipli binaların quraşdırılması, ümumtəhsil məktəblərinin əsaslı təmiri, maddi-texniki və təlim bazasının yaxşılaşdırılması sahəsində aparılan işlər, təlim-tərbiyə şəraitinin, təhsilin keyfiyyətinin yaxşılaşmasına, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə, təhsilin yeni məzmun - forma almasına müstəsna dərəcədə əhəmiyyətli təsir göstərmişdir

2022-ci tədris ilinin əvvəlində rayon üzrə ümumtəhsil məktəblərində şagirdlərin sayı 18180, tədris ilinin sonunda 18234 olmuşdur.

2021-2022 ci tədris ilinin təlim nəticələrinə görə IX sinf şagirdlərindən 42 nəfər, XI sinif şagirdlərindən isə 47 nəfər fərqlənmə attestatlarına layiq görülmüşlər.

Ötən tədris ilində 6 nəfər şagird "Qızıl" və "gümüş nişana layiq görülmüşlər.

1. Alməmmədov Fərid Araz oğlu- Vəndam qəsəbə 1 saylı tam orta məktəb, qızıl

2. Abuşova Xədicə Vüqar qızı - Nohurqışlaq kənd tam orta məktəb, qızıl

3. Məsimova İlahə Cahangir qızı - Nohurqışlaq kənd tam orta məktəb, qızıl

4. Yusibov Şəhriyar Səfa oğlu - Həmzəli kənd tam orta məktəb, qızıl

5. Qəribli Nərmin Mübariz qızı - Şəhər 2 saylı tam orta məktəb, qızıl

6. Musayeva Gülşən Mahir qızı - Şəhər 2 saylı tam orta məktəb, gümüş

Məktəblərin təhsil sahəsində əsas göstəricilərindən biri onların qəbul imtahanlarında göstərdikləri nəticələrdir. Bu məqsədlə məzunların ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələri əks etdirən reytinq cədvəlləri hazırlanmış, məzunları davamlı olaraq ali məktəblərə qəbul olunan və olunmayan məktəblər müəyyən olunmuş, zəif nəticələrin səbəbləri araşdırılmış, vəziyyətin düzəldilməsi üçün bir sıra təkliflər verilmişdir. 2021-2022-ci tədris ilində məzunlarımızın ali məktəblərə qəbulunun nəticələri xeyli yüksək olmuşdur. Belə ki, 2021-2022-ci tədris ili üzrə 42 nəfər məzun qəbul və buraxılış imtahanlarının yekun nəticəsinə görə 600-dən yuxarı bal toplamışdır. Onlardan ən yüksək bal toplayanlar:

1. Qismətli Fidan Vüqar qızı- 290+400= 690 bal, Qəbələ şəhər 4 saylı tam orta məktəb

2. Məmmədov Natiq Nabir oğlu -289+400= 689 bal, Qəbələ şəhər 1 saylı tam orta məktəb

3. Yusibov Şəhriyar Səfa oğlu -278+392=670 bal, Həmzəli kənd tam orta məktəb




Təhsilyanı şura iclasında son 3 ildə ümumtəhsil məktəbləri şagirdlərinin fənn olimpiadalarında iştirakı araşdırılmış, nəticələr təhlil edilmişdir. Belə ki 2020 - ci ilin nəticələrinə nisbətən 2021-ci ilin nətcələri xeyli yüksək olmuş, 2022- ci ildə isə 2021-ci ilin nəticələrinə görə müəyyən geriləmələr baş vermişdir. Vəziyyətin bu şəkildə olması səbəbi kimi bəzi məktəblərdə fənn müəllimlərinin ya özlərinin bilik səviyyəsi yetərli deyil ya da məktəb rəhbərləri bu məsələyə laqeyd yanaşmışdır. Cari tədris ilində belə müəllimlər və məktəb rəhbərləri xüsusi nəzarətə götürülmüşdür.

Rayonun Quşlar, Nic qəsəbə 1, 2, Çarxana, Qaradeyn kənd tam orta, Bum qəsəbə, Dızaxlı kənd, Solquca kənd ümumi orta məktəblərinin şagirdləri zona və respublika turuna belə keçə bilməmişlər. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Qəbələ şəhər 2 və 4 saylı, Vəndam qəsəbə 1 saylı, Bunud, Həmzəli, Nohurqışlaq, Mamaylı, Soltannuxa kənd tam orta məktəblərinin şagirdləri fənn olimpiadalarının zona və respublika turunda həmişə fərqlənmişlər.

2022- ci ildə keçirilən respublika fənn olimpiadasının final mərhələsinin nəticələrinə əsasən Qəbələ rayon ümumtəhsil məktəblərindən 4 nəfər şagird uğur qazanıb .

1. Dilbər Rəfiyeva Rauf qızı - Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin VIII sinif şagirdi - Azərbaycan dili-II yer

2. Şəhriyar Yusibov Səfa oğlu-Həmzəlli kənd tam orta məktəbin XI sinif şagirdi - Azərbaycan dili - II yer

3. Xədicə Abuşova Vüqar qızı - Nohurqışlaq kənd tam orta məktəbin XI sinif şagirdi- Azərbaycan dili - II yer

4. Gülşən Musayeva Mahir qızı - Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi - Azərbaycan dili -III yer

Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni məktəb binası və əlavə sinif otaqlarının tikintisi, əsaslı və cari təmir işləri xüsusi diqqət mərkəzindədir. 2021 -ci ildə rayonun Nic qəsəbə 1 və 4 saylı tam orta məktəbləri üçün uyğun olaraq 225 və 320 yerlik, Bum qəsəbə tam orta məktəbi üçün 624 yerlik məktəb binalarının tikintisinə başlanılmış, Zarağan kənd 1 saylı tam orta məktəbinin (528 yerlik) yeni binasının tikintisi başa çatdırılmış və istifadəyə verilmişdir.

Məktəblərin ixtisaslı pedaqoji kadrlarla tam təmin edilməsi məqsədilə Şəki Zaqatala Regional İdarəsinə 15 ixtisas üzrə 171 müəllimə ehtiyac olduğu barədə müraciət edilib. Çıxarılmış vakant iş yerlərindən 31-i yerdəyişmə yolu ilə, 13-ü müddətli müqavilə ilə, 91 yer isə müsabiqə yolu ilə tutulmuşdur. Qalan 26 yer (əsasən tədris dili rus dili olan məktəblər) isə tutulmamışdır

Bütün bu uğurlar sübut edir ki, Təhsil sektoru, eləcə də rayonun bütün təhsil müəssisələri növbəti dərs ilində də təhsilin keyfiyyətinin yüksəldilməsi, təlim resurslarından, müasir təlim metodlarından və texnologiyalarından daha səmərəli istifadə etmək istiqamətində işləri bu gündən sonra da davam etdirəcək, əvvəlki illərdə qazanılmış nailiyyətlərin qorunub saxlanılması və inkişaf etdirilməsi yolunda əzmlə çalışacaqdır.

# Narkotiksiz gələcək naminə

Narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, o cümlədən narkomanlıq-bu gün bəşəriyyəti ciddi düşündürən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran qlobal problemlərdəndir.Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizə davamlı xarakter daşıyır.

Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda isə narkomaniya müxtəlif xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə, ümumbəşəri bəlaya çevrilib. Digər tərəfdən, narkotik maddələrin qanunsuz dövriyyəsi gəlir əldə etmək üçün başlıca vasitə olub. Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyati proseslərə qarşı laqeydlik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə mənfi təsir göstərir.

Əfsuslar olsun ki, narkotiklərdən istifadə gənclər və yeniyetmələr arasında geniş yayılmışdır. Yeniyetmələrin narkotikdən istifadəsi onların indiki və gələcək həyatına, ailəsinə uzunmüddətli, mənfi təsir göstərə bilən davamlı problemdir. Bəziləri onları heç vaxt sınamasa da, digərləri həmyaşıdlarının təzyiqi, stress və ya digər səbəblər nəticəsində narkotikləri sınamağa və nəticədə istifadə etməyə başlayırlar.

Narkotiklərdən istifadə etmək qərarına bir sıra amillər təsir göstərir. Yeniyetməlik illərində insanlar üçün əsas amillərdən biri həmyaşıdlarının təzyiqidir. Bir insanın dostlarının təsiri, istər yaxşı, istərsə də pis, qəbul edilən qərarlarda çox vaxt böyük rol oynayır. Bəzi hallarda, hətta dost olmayan insanların təsiri də yeniyetmənin hərəkətlərinə təsir göstərə bilir. Bu təsir altında yeniyetmələr narkotik vasitələrdən istifadə etməyə başlayırlar. Bəzi hallarda, narkotikdən istifadə hətta yeniyetmələrin məktəbi tamamilə tərk etməsinə səbəb ola bilir ki, bu da onların gələcək iş və pul qazanma qabiliyyətini təhlükə altına alır. Narkotik istifadəsi intihar və avtomobil qəzaları nəticəsində yaralanma və ya ölüm riskini artırır. Maddələrdən sui-istifadə hətta ölümlə nəticələnə bilər. Depressiya şəklində psixi xəstəliklər də maddə asılılığı ilə əlaqələndirilir. Həbsxanaya düşmək narkotik maddələrdən sui-istifadənin başqa bir nəticəsidir. Nəinki narkotik vasitələrin qəbulu qeyri-qanunidir, eyni zamanda yeniyetmələr də cinayətkar qruplara qoşula, quldurluq edə, narkotik vasitələrin satışı ilə məşğul ola və ya onların qəbulu nəticəsində başqalarına hücum edə bilərlər.

Narkotik asılılıq dünyada müxtəlif əhali qrupları arasında geniş yayıldığına görə sırf tibbi problemdən sosial problemə çevrilib. Problemin həllinə xidmət edən mühüm addımlardan biri hər zaman qeyd edildiyi kimi, preventiv tədbirlərin görülməsi, o cümlədən maarifləndirmə işinin lazımi səviyyədə qurulmasıdır. Əsas məqsəd yeniyetmələrimizin və gənclərimizin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaqdır. Təcrübədə yeniyetmələrin və gənclərin pis vərdişlərə və təhlükəli işlərə daha çox meylli olmalarını nəzərə alaraq narkomaniyanın qarşısını almağın əlverişli yolu təhsil müəssisələrində, xüsusən də məktəblərdə geniş maarifləndirmə işinin aparılmasıdır. Belə ki, elm ocaqlarında azyaşlılar, yeniyetmələr və gənclər arasında narkomaniyanın profilaktikası mütləq və aydın başa düşüləcək tərzdə həyata keçirilməli, görülən tədbirlər onlar tərəfindən çox ciddi qəbul olunmalı və onlarda narkotiklərdən uzaq durma mövqeyinin formalaşdırılması ilə nəticələnməlidir. Narkomaniyaya qarşı profilaktika sistematik olmalı və kütləvi xarakter daşımalıdır. Uğurlu profilaktika mühazirələr söylənilməsi, müsahibə aparılması sair yollarla mümkündür.

Ölkəmiz isə öz müstəqilliyinə qovuşduqdan sonra bütün sahələrdə olduğu kimi, narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində də məqsədyönlü, ardıcıl və təxirəsalınmaz addımlar atmışdır. Azərbaycan Respublikası narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə siyasətini üç əsaslı yanaşma ilə həyata keçirir: narkotik maddələrə tələbatın azaldılması, narkotik vasitələri təchizatının azaldılması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi.

Bu gün ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və onlara qarşı mübarizə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi dövlət başçısının, hüquq mühafizə orqanlarının daim diqqət mərkəzindədir. Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq ilə mübarixə sahəsində dövlət siyasətinin strateji istiqamətləri müəyyən olunmuş, təşkilati-hüquqi, institusional və praktiki tədbirlər həyata keçirilmişdir. 1992-ci il tarixdə Azərbaycan Respublikası BMT-yə tam hüquqlu üzv olduqdan sonra "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il konvensiyasına qoşulmuşdur. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi Azərbaycan Respublikasında qanunla qadağan olunmaqla həmin əməllərə yol vermiş şəxslərin cinayət və inzibati məsuliyyətləri müvafiq olaraq Cinayət və İnzibati Xətalar Məcəllələri ilə tənzimlənir.Bu gün narkomanlığa qarşı mübarizədə səmərəliliyə nail olmaq üçün aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası və ölkə Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı", həmçinin Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı xüsusi təkan vermişdir.

Ulu öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 26 avqust 1996-cı il tarixdə müvafiq fərman imzalamış və problemin həlli istiqamətində həyata keçirilən tədbirlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu Fərman əsasında 2000-ci ilə qədərki dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, 18 iyun 1999-cu ildə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" qanun qəbul olunmuşdur. Bu sənədlərin qəbulunda ümumi məqsəd Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyasını, narkotik vasitələrin və psixotrop maddələrin istehsalını, dərman preparatlarının və xammalın hazırlanmasını qanunla qadağan etməkdir. Dövlət orqanları ilə yanaşı ictimai təşkilatların da bu işdə yüksək fəallığı müsbət nəticələrin əldə olunmasına stimul verir. Bir sözlə, Azərbaycan hökuməti narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni dövlət səviyyəsinə qaldıraraq narkotiklərlə mübarizə sahəsində qabaqcıl dünya təcrübəsinə əsaslanan kompleks tədbirləri ardıcıl olaraq sistemli şəkildə həyata keçirir.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas.**